SOCIAL
PARADIGM
AN INTERNATIONAL JOURNAL OF SOCIAL SCIENCES

*Social Paradigm, 2022, 6 (1): 12-27*

# Russian children's prose between 1960 and 1980

*Qafarova Səməngül Hüsü qızı*

***Abstract***

A certain part of Russian literature covering a period of 700 years is also children's literature. In the IX-XII centuries there was a period called Ancient Russian children's literature. The 60s and 90s of the 12th century are considered to be the most productive period of Russian children's literature. The first textbook was published in those years. The eighteenth century was fruitful in the field of children's literature. During these years, 400 books of tales and stories were published. These works were called baby wax-like stories. F. Polukarpov, who wrote the history of Russian children's literature at the request of Peter I, wrote about the most difficult moments and successes of these years. At the end of the 18th century, the development of children's literature no longer met the demand. In the 19th century, the development of children's literature was very weak. N.A. Dorolyubov divided this period into four chapters. The fourth chapter is called "Children's Literature in the 80s and 90s." After this period, the development of Russian children's literature in both poetry and prose was fruitful. The study of children's literature, which had a difficult and arduous 300 years before the revolution, dates back to the more interesting, scientific development of the Soviet era. During these years, the development of children's literature became a common issue. The Russian state was already seriously interested in the development of children's literature. The issues raised at the IV Congress of Writers in the Russian Federation in 1970 led to more serious discussions at the VIII Congress of the Writers' Union of the USSR in 1986 on the development of children's literature. The writers were faced with important requirements for the development of this field. The development of children's literature has always been on the agenda in Russian society. As early as 1986, the speakers of the Central Committee of the CPSU said about the development of children's literature. In recent years, by the decision of the Central Committee of the Soviet Communist Party, the publication of children's books has increased in all republics and regions, the activities of the main publishing house "Children's Literature" have expanded, the circulation of periodicals has increased. Much attention was paid to research. A collection entitled "On Literature for Children" and a monthly journal of literary criticism and bibliography "Children's Literature" have been published since 1966. The best examples of children's literature were published here. The annual "Children's and Youth Book Week" began to be celebrated as a holiday. Films from the most exemplary works of children's literature were shown. Part of A.Surkov's report at the III Congress of Writers in 1959 was related to children's literature. S.Mikhalkov spoke "On the High Purpose of Soviet Children's Literature" in 1967 at the IV All-Union Congress of Soviet Writers. He spoke about the achievements of the multinational Soviets in these 50 years. The problems of children's

literature were discussed at the III Congress of Russian Writers in 1970. With a comprehensive speech, A. Barto made a presentation on the development of children's literature, but also noted its success. At the V Congress of Writers of the RSFSR in 1980, S. Mikhalkov spoke about the international significance of children's literature at this stage. The report of the First Secretary of the Board of the USSR Writers' Union GM Markov at the VII Congress of Writers of the USSR in 1981 was also highly appreciated. In 1986, at the VIII Congress of Writers, it was emphasized that in accordance with the scale of renewal in the country, development applies to both children's literature and all literature. In recent years, the traditions accumulated during the new half-century of history have been successfully developed in children's literature. A number of interesting works have been created to solve the problem. “We are from Korshun” A.Kuznetsov, “Vernen fortress” N.Kalim, “Blue sea, white ship” G.Mashkin, “Life of Lenin” M.Prilejaeva, “Mother's heart”, “Through the icy fog” Zoya Voskresenskaya we can. One of the most memorable children's writers of these years was Maria Pavlovna Prilejaeva, who lived between 1903 and 1989. Her works "Masha Strogova's youth", "On the Volga", "Waltz of relatives", "May green wreath" are examples that confirm our views. V.Bogomolov's "Ivan", E.Palyakov's "Communist son", V.Morozov's "Boy's exploration", I.Poluyanov's "Soldier's daughter", N.Nadezhdina's "Partizan Lara", N.Olenina's "Crane crack", Z. Voskresenskaya's "Girl in the Stormy Sea" and others. His works are ordinary. Modern books for preschoolers and young schoolchildren also smelled of the author's work and taste. A.Krestinsky's "Little Petrov and Captain Kolodkin", V.Razumovich's "Stasik - a happy man", A.Rybakov's "Adventures of Cross", N.Pechersky's "Medinitsa", A.Musatov's "Spring song" and others. In the works, children and adults talked about the role of the fruits of labor in the communist construction. In this regard, A. Rybakov's "Adventures of Croche" won the USSR and RSFSR awards. The work of E. Permyakin (1902-1982), a prominent representative of the 60s and 80s, is also important. In his stories and tales, he described human labor and world change as "Grandfather's coffin", "Hurrying knife" and others. wrote with interest in his works. "How will Masha grow up?" In his work, he described the desire of children to grow up. Modern books for preschoolers and young schoolchildren also smelled of the author's work and taste. A.Krestinsky's "Little Petrov and Captain Kolodkin", V.Razumovich's "Stasic - happy man", A.Rybakov's "Adventures of Cross", N.Pechersky's "Medinitsa", A.Musatov's "Spring song" and others. In the works, children and adults talked about the role of the fruits of labor in the communist construction. In this regard, A. Rybakov's "Adventures of Croche" won the USSR and RSFSR awards. The work of E. Permyakin (1902-1982), a prominent representative of the 60s and 80s, is also important. In his stories and tales, he described human labor and world change as "Grandfather's coffin", "Hurrying knife" and others. wrote with interest in his works. "How will Masha grow up?" In his work, he described the desire of children to grow up. Like Soviet children's writers, Russian children's literature at the time focused on patriotic, labor, legal, and economic issues in all genres, including prose. These works broadened the horizons of children's knowledge about the history of revolutionaries, communism, the struggle for Soviet power, enriched their speeches,

helped to establish interesting dialogues using laconic and figurative folk vocabulary and the rhythm of folk speech.

**Keywords:** Russian children's literature, children's literature in 60-80s, patriotism in children's works, Russian children's literature writers, innovation in Russian children's literature.

*Received/Makale Geliş Tarihi: 18.06.2021*
*Accepted/Makale Kabul Tarihi: 20.10.2021*

## Introduction

Uşaq ədəbiyyatının inkişafı bütün dövrlərdə rus cəmiyyətində gündəmdə olmuşdur. Hələ 1986-cı ildə KPSS MK-nin məruzəçiləri uşaq ədəbiyyatının inkişafı haqqında: "Uşaq ədəbiyyatının rolu, cəmiyyətimizin indiki inkişaf mərhələsində yazıçıdan bədii kəşflər, hər zaman əsl sənətin mahiyyəti olan həyat həqiqətini gözlədiyi zaman ölçüyə gəlməz dərəcədə artır"- demişlər. (KPSS XXVII qurultayının materialları. Moskva- 1986. səh.90)

Son illərdə Sovet SKP MK-nın qərarı ilə bütün respublikalarda və bölgələrdə uşaqlar üçün kitabların nəşri artdı. Əsas nəşriyyat olan "Uşaq ədəbiyyatı"-nın fəaliyyəti genişləndi, dövri nəşrlərin tirajı da artırıldı. Tədqiqat işlərinə çox diqqət yetirildi. Oxucunun – uşaq və yeniyetmələrin maraq dairəsi nəzərə alındı. YB, SSRİ Peddaqoji Elmlər Akademiyası, Uşaq və gənclər nəşriyyatı, Moskva kitab uşaq evi, Leninqrad şöbəsi də uşaq ədəbiyyatı sahəsində mükəmməl işlərə başladılar. Bu nəşrlər yalnız uşaq ədəbiyyatı və uşaq nəşri ilə məşğul olurdular. Yeni fəaliyyətə başlayan "Uşaqlar üçün ədəbiyyat haqqında" adlı topluda uşaq ədəbiyyatının tarixini, nəzəriyyəsini və tənqidini nəzərdən keçirir, uşaq yazıçılarının ustalığına dair tədqiqatlar və məqalələr dərc edirdilər. 1966-cı ildən etibarən aylıq "Uşaq ədəbiyyatı" ədəbi tənqid və biblioqrafik jurnalı nəşr olundu ki, burada uşaq ədəbiyyatının ən yaxşı nümunələri çap olunurdu. Hər il keçirilən "Uşaq və gənc kitabları həftəsi" bayram kimi qeyd olunmağa başladı. Bu həftənin keçirilməsi və hazırlanması zamanı bir çox tədbirlər həyata

keçirilir, kitab sərgiləri, ədəbi səhərlər və bədii gecələr təşkil olunurdu. Uşaq ədəbiyyatının ən nümunəvi əsərlərindən çəkilmiş filmlər göstərilirdi.

1959- cu ildə yazıçıların III qurultayında A.Surkov məruzəsinin bir hissəsini uşaq ədəbiyyatı məsələlərinə həsr etmişdir. S.Mixalkov “Sovet uşaq ədəbiyyatının Yüksək məqsədi haqqında” 1967-ci ildə Sovet Yazıçılarının IV Ümumittifaq Konqresində çıxış etdi. Sovetlərin çox millətli olduğunu vurğuladı, bu 50 ildə qazanılan nailiyyətlərin hamıya aid olduğunu dedi. Qeyd etdi ki, əsərlərimizlə gənc qəhrəmanı əsl vətəndaş kimi yetişdirməliyik, təkcə hərbi döyüşlərdə deyil, həm də təbii fəlakətlərlə mübarizəyə hazırlamalıyıq. Bəzən mənəvi sarsıntı, psixoloji cəhətdən incə, ən kiçik yalanın yaratdığı kəskin ağrını da kitabların köməyi ilə tərbiyələndirərik, mənəvi döyüşlərdə də qəhrəman olmağa hazırlaya bilərik.

1970- ci ildə Rusiya Yazıçılarının III Qurultayında Uşaq ədəbiyyatının problemləri müzakirə olundu. A.Barto hər tərəfli, geniş məruzəsində uşaq ədəbiyyatının inkişafı ilə bağlı həm təqdimat verdi, həm də uğurlarını söylədi.

RSFSR yazıçılarının 1980-ci ildə keçirilən V qurultayında S.Mixalkov uşaq ədəbiyyatının indiki mərhələdə beynəlxalq əhəmiyyətindən danışdı. Son illərdə Amerika və Avropada olan nüfuzlu nəşriyyatlarda rus yazıçılarının bu sahədəki fəaliyyətinə maraq göstərməsini qeyd etdi. Bir çox kitabların nəşr olunmasını göstərdi.

Uşaq ədəbiyyatının fəaliyyətini SSRİ Yazıçılar Birliyinin İdarə Heyətinin birinci katibi Q.M.Markovun 1981-ci ildə SSRİ Yazıçılarının VII Qurultayındakı məruzəsi də yüksək qiymətləndirildi. O, qeyd edirdi ki, uşaq ədəbiyyatı son zamanlarda anaların mənəvi problemlərinə çox diqqət yetirir, həm də kütləvi xüsusiyyətləri tam şəkildə təcəssüm etdirən və həqiqət dolu əsərlər ortaya çıxarır. Bu işlər davam etməlidi. Məktəbəqədər uşaq ədəbiyyatının inkişafında isə heç bir saxtakarlığa yol vermək mümkün deyil. Çünki ucadan oxunan əsərlərdə hər şey düşüncədən sözə dəqiqliklə hopdurulmuşdu. Burada hər şey aydın və

mükəmməldir. Markov sonra qeyd etmişdir ki, müasir uşaq ədəbiyyatı inkişafımızın təbii halqasıdır. Amma burada zəif və güclü tərəfləri ilə əvvəlki illərdə meydana gələn uşaq ədəbiyyatından fərqlənən cəhətlər var. Unutmamalıyıq ki, 80-ci illər, xüsusilə, cəmiyyətimizin yenidən qurulması dövrüdür. Bu əxlaqi və sosial tərbiyə məsələləri uşaq ədəbiyyatı qarşısında əvvəlkindən də daha kəskin şəkildə qarşıya çıxan bir problemdir. Bunları həyata keçirmək, uşaq ədəbiyyatının haqqıdır və çətin də olsa, vəzifəsidir.

1986-cı ildə Yazıçıların VIII Qurultayında vurğulandı ki, ölkədə baş verən yeniləşmə miqyasına uyğun olaraq inkişafetmə, həm uşaq ədəbiyyatına, həm də bütün ədəbiyyata aiddir.

(Literaturnaya qazeta-1986 2 iyul)

Son illərdə yeni yarıməsrlik tarix ərzində toplanan ənənələr, uşaq ədəbiyyatında uğurla inkişaf etdirilirdi. Problemi həll edən bir sıra maraqlı əsərlər yarandı. “Biz Korşundanıq” A.Kuznetsov, “Vernen qalası” N.Kalım, “Mavi dəniz, ağ gəmi” Q.Maşkin, “Leninin həyatı” M.Prilejaeva, “Ana ürəyi”, “Skboz “Buzlu duman içindən” Zoya Voskresenskayanın əsərlərini nümunə göstərə bilərik. O illərin yadda qalan uşaq yazarlarından biri, 1903-1989- cu illər arasında yaşamış Mariya Pavlovna Prilejayeva idi. Onu sovet məktəbinin, uşaq ədəbiyyatının və peşəkar müəllimlərin qurucularından biri adlandırsaq səhv etmərik. Mariya Pavlovna bu günün və gələcəyin mükəmməl planını maraqlı əsərlərinin vaitəsilə həyata keçirməyə çalışmışdı. Onun “Maşa Stroqovanın gəncliyi”, “Volqanın üzərində”, “Qohum valsı”, “Mayda yaşıl çələng” əsərləri fikirlərimizi təsdiqləyən nümunələrdəndir. O, həm gözəl yazıçı, həm də keçmişin müəllimi kimi, gənc nəslin təhsil işçilərini narahat edən problemləri həll etməyə çalışırdı. Yazıçı xanım, mükəmməl bildiyi bu sahədəki çətinlikləri qaldırmaqda mübariz və güclü idi. Əsərləi də, uzun illərin təcrübəsindən qazandığı yaradıcılığının məhsuludur. Onun yaradıcılığında Lenin mövzusu da önəmli idi. O, Lenini bədiiləşdirmişdir, əməyini yüksəklərə qaldırmışdı. İnqilaba, inqilabi hadisələrə həsr olunmuş “Şimal Göy haqqında”, “Medveditsanın

sahillərində", "İnanılmaz bir il", "Üç həftə sakitlik" adlı əsərlərini yazmışdır. Onun ədəbiyyata verdiyi töhfələr RSFSR Dövlət mükafatı ilə qiymətləndirilmişdir.

Bu illərdə Böyük Vətən Müharibəsi hadisələrinin təsvirinə həsr edilmiş əsərlər də əhəmiyyətli yerlərdən birini tutur. V.Boqomolovun "İvan", E.Palyakovun "Kommunist oğlu", V.Morozovun "Oğlanın kəşfiyyata getməsi", İ. Poluyanovun "Əsgər qızı", N.Nadejdinanın "Partizan Lara", N.Oleninanın "Vinç yarığı", Z.Voskresenskayanın "Fırtınalı dənizdəki qız" və s. əsərləri bu sıradandır.

Məktəbəqədər və kiçik yaşlı məktəblilər üçün müasir kitablarda müəllif əməyinin, zövqünün qoxusu duyulurdu. A.Krestinski "Kiçik Petrov və Kapitan Kolodkin" , V.Razumoviçin "Stasik - xoşbəxt insan" , A.Rıbakovun "Krosun macəraləri", N.Peçerskinin "Medinitsa", A.Musatovun "Bahar mahnısı" və s. əsərlərdə uşaqlar və böyüklərin kommunist quruculuğundakı əməyinin bəhrəsindən söhbət açmışdılar. Bu baxımdan A.Rıbakovun "Kroşun macəraləri" əsəri SSRİ və RSFSR mükafatlarını qazanmışdır. Uşaqların kommunist quruculuğundakı rolundan bəhs edən, 60-80-ci illərin görkəmli nümayəndəsi E.Permyakin (1902-1982) yaradıcılığı da əhəmiyyətlidir. O, hekayə və nağıllarında insan əməyini və dünyanın dəyişməsini "Babanın mücrüsü", "Tələskən bıcaq" və s. əsərlərində maraqla qələmə almışdır. "Maşa necə böyüyəcək?" əsərində isə uşaqların böyümək arzusunu təsvir etmişdi.

"Uşaq ədəbiyyatı" nəşriyyatında publisistik, "İnsanlar və hadisələr", "Peşələr haqqında hekayələr" və s. kommunist quruculuğu mövzusunda olan əsərlər çap olunurdu. Belə əsərlər bu mövzu ətrafında yeni kitabların çapına təkan vermişdi. Burada yeni əmək psixologiyasını tərənnüm edən məktəbəqədər və ibtidai məktəbyaşlı uşaqlar üçün elmi, bədii və publisistik kitablar da var idi. Y.Krutoqorovanın "Sahədəki şəhər", Y.Qribovun "Praskova Malina haqqında" kitabları buna misal ola bilər. Burada südçülər, baytarlar və buzovlar haqqında maraqlı fikirlər söyləməklə oxucuların diqqətini cəlb edirdilər.

Müasir uşaq ədəbiyyatında çox yeniliklər meydana çıxdı. Müasir uşaq ədəbiyyatı, kosmos tədqiqatının bir çox aktual mövzusunu əsərlərə gətirdi. L.Obuxovanın "Yerin ulduz oğlu" əsərini nümunə göstərə bilərik. Burada müəllif sənədli materialı bədii ədəbiyyatla birləşdirir, kosmos tədqiqatının aktual mövzularını, inkişafını bədiiləşdirir. Yazıçı, qəhrəmanın həyatındakı hadisələri xronoloji ardıcıllıqla göstərmişdi. Əsərin qəhrəmanı ilk kosmonavt Yuri Qaqarin – Zemindir. O, tərcümeyi-hal materiallarının köməyi ilə oxucuları qəhrəmanın canlı xüsusiyyətləri ilə tanış etmişdir.

Sovet uşaq yazarları kimi, bu dövrdə rus uşaq ədəbiyyatı yazarlarının əsas diqqətində olan vətənpərvərlik, əmək, hüquqi və iqtisadi problemlər bütün janrlarda, həm də nəsrdə araşdırılırdı.

1981-ci ildə SSRİ Yazışılarının VII qurultayında S.Mixalkov öz çıxışında: "Gedin uşaq və gənclərin həyatı ilə yaxından tanış olun, onların döyüşkən, vətənpərvər, beynəlmiləlçi olmalarına zəmanət verən əsərlər yazın." – deyirdi. (SSRİ yazıçılarının VII qurultayının məruzələrindən. M-1981)

Bu çıxışdan sonra bəzi yazarlar qarşıya qoyulmuş bu məsələlərə münasibətlərini bildirdilər. Bunlardan S.Alekseevin "Vahiməli bağda", "Şöhrət quşu", "Qəhrəman ogul", "Dekabristlər" və s. əsərlərində öz əksini tapmışdır. "Qəhrəman ogul" əsərində 1917-ci ilin dəhşətli və şanlı hadisələri təsvir edilmişdir. Göstərilir ki, yetim Leşka Putilov fabrikində işləyir, hadisələr başlayanda o da işçilərlə birlikdə Qış sarayına gedir. Burada ən yaxşı dostu Andrey dayını itirir. Onun tüfəngi ilə mübarizəyə qoşulur. İstər-istəməz 1917-ci ilin qanlı döyüşlərinin iştirakçısına çevrilir. O, bu mübarizədə başa düşür ki, yeni yolu bolşeviklərlə başlayacaq. S.Alekseevin əsərlərinin önəmli cəhəti odur ki, ən çox həqiqətə üstünlük verir, sənədli materialdan istifadə edir. Onun yaradıcılığındakı yenilik, yeni danışma, leksikonu başa düşülən, sintaktik quruluşu isə sadədir. Onun 1919-cu ildə yazdığı "Qardaş" povesti 7-10 yaş arası uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu əsərlə uşaqların inqilabçılar, kommunizm, Sovet hakimiyyəti uğrunda

mübarizənin tarixi haqqında biliklərinin üfüqlərini genişləndirmiş, nitqlərini zənginləşdirmiş, lakonik və məcazi mənada xalq söz ehtiyatlarından və xalq nitqinin ritmindən istifadə edərək maraqlı dialoqlar qurmalarına yardımçı ola bilmişdir. Bu da üslubun sintaktik quruluşu və elastikliyi ilə xarakterizə olunur. S.Alekseevin metodiki və inanılmaz bir nəqletmə tərzi var idi. O, əsərlərində xarakterlərin xüsusiyyətlərini müxtəlif yöndə təqdim edə bilmişdir.

60-80-ci illər uşaq nəsri sahəsində əməyi olan hər kəs, gələcəyə necə baxmağı, qəhrəmanları formalaşdırmaq üçün müsbət xarakterlərin təsviri və s. yolları axtarmışdılar.

A.N.Rıbakov uşaq və gənclərin formalaşmasına həsr olunan belə ədəbi nümunələrin yaradılmasına böyük əhəmiyyət vermişdi. Müharibədən sonra iştirakçısı olduğu hadisələrin bədii təsvirini verməklə, uşaq nəsrinə mükəmməl töfhələr bəxş etmişdir. Onun macəra janrında yazdığı məşhur "Xəncər" və "Tunc quş" romanları, 1920-ci illərdəki yeniyetmələrin özünün və həmyaşıdlarının taleyini ortaya qoymuşdur. İki nəsil pioner olan uşaqların xarakterlərinin formalaşmasını göstərən, bir növ diologiyanı xatırladan bu əsərlər oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Burada qəhrəmanın şəxsiyyətinin formalaşması prosesini hekayədən hekayəyə qədər izləmək istəyi, A.Rıbakova məxsus yaradıcı davranış xüsusiyyəti kimi, 1960-70-ci illər arasında yazdığı "Kroşa" adlı trilogiyada da özünü göstərmişdir. Əsər "Kroşanın macəraları", "Kroşanın tətili", "Naməlum əsgər" adlı üç hissədən ibarətdir. Hekayənin qəhrəmanı Kroşa, Rusiyanı çox sevən, millətçi, vətənpərvər bir gəncdir. Onun üçün təkcə bu gün yaşayanlar deyil, hətta müharibədə həlak olanların da taleyi maraqlıdır, əzizdir. O, məşhur əsgərlərin taleyini öyrənmək istəyən bir gənc kimi fəaldır.

Çağdaş mövzulara diqqəti cəlb edən yazıçılar arasında şair, yazıçı, publisist Sergey Alekseeviç Baruzdində var. O, yaradıcılığında böyük bir məsuliyyətlə uşaqların kommunist ideyaları altında tərbiyə edilməsinə çalışmışdır. Yazıçının əsərləri sözün özünəməxsusluğunu saxlamaqla, iki mövzu istiqamətində inkişaf etmişdir. "Komsomol

ölkəsində baba, nənə, ata, ana və biz haqqında" yazıçının qələmə aldığı bu povest, oktyabryat, Alyoşa adlı oğlanın hər axşam babasından dinlədiyi hekayələrdən ibarətdir. Putilov fabrikində tornacı işləyən babası, həm də komsomolun I Konqresinin iştirakçısı olmuşdu. Alyoşanın nənəsi isə toxuculuq fabrikində işləmişdir. O, həm də vətəndaş müharibəsində tibb bacısı olmuş komsomolçudur. Alyoşanıın ata-anası komsomol üzvü olaraq vətənin müdafiəsinə, alman işğalçılarına qarşı mübarizəyə qalxmışlar. Bacısı Klaka indi komsomolçudur. Povestdə təsvir edilir ki, Alyoşa bütün eşitdiklərindən sonra bu qənaətə gəlir ki, "ölkəmiz həqiqətən komsomol ölkəsidir, çünki orada yaşayanlar ya komsomol üzvü olub, ya komsomolçudur, ya da komsomolçu olacaqlar." S.Baruzdin yaradıcılığında obrazların dili ilə sübut edir ki, sovet xalqları arasında uçurum, anlaşılmazlıq yoxdur. Çünki bütün nəsillər arasında fikir, baxış, Vətən sevgisinə söykənən bir birlik və onu qorumaq istəyi var.

S.A.Baruzdinin əsərlərində əhəmiyyətli cəhətlərdən biri də onun məktəbəqədər və məktəb yaşlı uşaqları nəzərə almasıdır. O, maraqlı hadisələri qələmə alaraq kiçik oxucular üçün yazdığı publisistik hekayələrdə də sovet ideyalarını təbliğ etməyə çalışmışdı. Yazıçı müxtəlif onilliklərdəki hadisələri, əsgərin vəzifəsini və xarici görünüşünü rəssam gözü ilə cızmışdır. Bu əsgərlər, Qırmızı Qvardiyanın, Qırmızı Ordunun əsgərləridir. "Küçədəki əsgər" adlı hekayəsində sovet ordusunun şanlı tarixini, cəsarət dolu yolunu ardıcıl olaraq on bir kiçik fəsildə göstərmişdir. Hər fəsil sovet ordusunun bir qəhrəmanlığını təsvir etmişdir. İnsanların təbii fəlakətlərlə üzləşməsindən, anbarların dağıdılmasından, müharibə illərində və müharibədən sonra faşitlərin basdırdığı silah-sursatın məhv edilməsindən, təhlükəli yerlərdə əsgərlərin şücaətindən, lənətlənmiş müharibənin döyüş səhnələrindən və s. təsvirlərdə insan obrazını - əsgərin bədii təcəssümünü qələmə almışdır.

Baruzdin bir sovet əsgəri xarakterində, xüsusilə sülh günlərində də onların müqəddəs vəzifə borcunu məktəbəqədər uşaqlara

anlatmağa çalışmışdır. Hərbi vəzifənin vacib bir sahə olduğunu, hər həsin bunu etməli olduğunu qeyd etmiş, uşaqlara nəzakətlə istiqamət vermişdir ki, bu əsgər hamımız ola bilərik. Və bu xidmət kimin üçündür? - Bəli, sizin üçün. Əsgər atanız, böyük qardaşınız, sevdiyiniz hər kəsdir.

Yazıçı, sənətçi, publisist yeni bir sülhə üz tutmuş, uşaqlarda əsgər və bu sahədə çalışanlara sevgini artırmış, ölkənin tarixini dərk etməyə təşviq etmiş, dünyagörüşün formalaşmasına təkan vermişdir. Baruzdinin özünəməxsus tematik mövzuları heyvanlar haqqında qısa hekayə və nağıllarda da özünü göstərmişdir. Bu hekayə və nağıllarda yazıçı, dünyaya dair poetik və insani baxışlarını təcəssüm etdirmişdi. S.Mixalkov bu əsərlər haqqında fikrini belə bildirmişdi: “İlk baxışdan bu əsərlərin qəhrəmanı heyvanlar kimi görünə bilər, amma əslində onların əsas xarakteri xeyirxahlığın və dostluğun sonsuz gücünün nəcib göstəricisidır.” (Zubaryeva E.E. Detskaya literatura” M-1989 s.217)

Yaxşılıq, nəciblik və dostluğun sərhədsiz gücü haqqında incə fikirləri birləşdirən, el arasındakı heyvanlara aid söhbətlərin əksini tapdığı “Hiyləgər yaraşıqlı”, “Ravi və Şaşi”, “Qar Hindistana necə düşdü?”, “Soyuqlamış kirpi” və s. əsərləri də var. “Soyuqlamış kirpi” hekayəsində yazıçının heyvanlar haqqında təəccüblü dərəcədə zərif və incə münasibətini hiss etmək olar. Burada yazıçı Polşada müharibə zamanı soyuqlamış, meşədə tapılan kirpiyə münasibətini əsgərlərin vasitəsilə bildirmişdir. Burada iki fikir; həm beynəlmilləlçilik, həm də heyvanlara qarşı olan qayğı öz əksini tapmışdır. Qaz qutusunda isti südlə bəslədikləri kirpini müharibənin axırıncı ili tapdıqları və bahara qədər saxladıqları kirpini özləri ilə Çexslovakiyaya qədər aparmış, isti, günəşli bir gündə meşəyə buraxmışlar. Bu arada kirpinin timsalında fərqli ölkədən olan insanlarında isti bir birlik oyadan ruhda möhkəmlənməsi diqqət mərkəzindədir.

Beynəlmilləlçilik hissi ikinci nağılda da öz istiqamətini, yolunu tutmuşdur. “Ravi və Şaşi” hekayəsində hindistanlıdan hədiiyə

edilmiş iki filin yaşam tərzi öz əksini tapmışdır. Onun heyvanlar haqqında hekayələrində onlara qarşı diqqətli olmaq və onlara isti münasibət göstərmək kimi mənəvi, xarakterık hisslərin aşılanması müşahidə olunur. O, heyvanlara insan kimi münasibət göstərmir, amma insanlığın bəzi xüsusiyyətlərinə uyğunlaşdırır.

S.A.Baruzdin yaradıcılığı, uşaq ədəbiyytının inkişafında özünəməxsus, fərqli cəhətləri ilə iz buraxmış, uşaqların tarixi hadisələrə, əsgərlərə, vətənə, heyvanlara qayğı, sevgi və s. mənəvi dəyərlərə marağını artırmışdır. Həm də müəyyən qədər məktəbyaşlılara və məktəbəqədər uşaqlara elmi məlumatlar vermişdir.

Yuri İosoviç Kornits, uşaq ədəbiyyatı sahəsində səmərəli fəaliyyət göstərən şair və nasirlərdən biridir. O, 50-ci illərdən uşaq ədəbiyyatına töhfələr bəxş etmişdir. Onun əsərləri toplanmış "Eşidilən söhbət", "Meşə yarışması", "Pəncələr", "Təkər" və s. kitabları uşaqların sevimlisi olmuşdu.

60-70-ci illərdə Y.S.Kornits müxtəlif janrlarda uşaqlar üçün şeirlər və nağıllar toplusu yaratmışdır. 1971-ci ildə "Od haqqında poema", 1963-cü ildə "Uzun ada" adlı məktəbəqədər uşaqlar üçün yazdığı əsərləri o dövr uşaq ədəbiyyatı sahəsində atılan ən gözəl addımlar idi.

Yuri Kornitsin 1968-ci ildə "Uzaqda, çayın o tayında" və "Ağ gecəli od ətrafı" dialogiyası, 1972-ci ildə gənc və orta yaşlı uşaqlar üçün yazdığı "Vernerdən salam" adlı romanı, "Şəkillərdəki xəyallar" adlı hekayəsi çap olundu. Onun yaradıcılığı çox janrlı və çox istiqamətlidir. Amma o, istiqamətindən və janrından asılı olmayaraq bir mövqedən çıxış etmiş, partiya və vətəndaşlıq prinsipinə sadiqliyi nümayiş olunmuşdu. Əsərlərində məktəbyaşlı və məktəbəqədər uşaqların əsl insanın fərdi, dar ya da geniş mənada hər kəslə maraqlanması, onun dərd-səri ilə yaxından tanış olunmasını məsləhət görürdü. Y.S.Kornitsin bəzi hekayələri şifahi xalq ədəbiyyatının motivləri əsasında yazılmışdır. Bu hekayələr bəzən bir yox, bir neçə nağıldan istifadə etməklə yaranırdı ki, buna "İtirilmiş əlcəyin hekayəti"ni,

publisistik yazıya bənzəməsini isə "Rəssamın xaricə səfərinin tarixi" əsərini nümunə göstərə bilərik.

Ümumiyyətlə, Y.S.Kornitsin yaradıcılığı, rus uşaq nəsrinin inkişafında mühüm əhəmiyyət kəsb edən ən gözəl nümunələrdir. Onun kitabları uşaqlarda humanist və beynəlmilləlçi hisslər oyatmış, onların dünyagörüşündə başqa millətlərə humanist münasibət yaratmağa nail olmuşdur. Sovet dövründə partiyanın və dövlətin mövqeyini yaradıcılığında əks etdirməyə çalışmışdır. Sovetlər ölkəsində görünən tərəf kimi hər vaxt xalqlara qarşı mövqe dəyişməz idi. Bütün millətlərin hüquqi bərabər, eyni zamanda həyat tərzi eyni idi. Bir sənətkar, nasir kimi Kornits uşaqlara bu mənəvi tərəfləri öyrətməyə çalışmışdı. Maraqlı əsərləri ilə humanist mövqedən çıxış edən nasirin yaradıcılığı dünyanın bir çox dillərinə tərcümə edilmiş və sevilmişdir.

Rus sənətkarları hər zaman uşaq ədəbiyyatının formalaşması yolunda çalışmılar. Belə sənətkarlardan biri də Lev Kuzmindir. O, uzun müddət və səmərəli uşaq ədəbiyyatı sahəsində yazıb, yaratmışdır. Yaradıcılığa şair kimi başlasa da nasir kimi fəaliyyət göstərmişdir. Uşaqlar üçün yazdığı "Salam", Mitya Kukin", "Hərbi hissədə ay", "Kədərli Elizabet", "Günəşli pəncərələr", "Möcüzəli alma", "Kiçik sahələr" adlı əsərləri vardır. 1984-cü ildə axırıncı "Hekayələr" toplusu çap olunmuşdur. Bu toplu bir diologiyanı xatırladır, çünki iki hissədən ibarətdir. Birinci hissə "Malaxa", ikinci hissə "Oleşinin dırnağı" adlanır. Bu diologiyaya müxtəlif məzmunlu, lakin ortaq problemlə əlaqəli hekayələr toplanmışdır. "Atəş böcəyi" və "Kiçik bölgələr" adlı hekayələri isə iki əsri birləşdirir, əlaqələndirir, incə ştrixlərlə uşaq psixologiyasının bəzi detallarını, daxili dünyasını açır. Hekayələr sərbəst, xeyirxahlıqla dolu, poetik üslubda yazılmışdır. Əsərlərində uşaqlar arasında qorxunu atmağa həvəsləndirən detallar geniş yer tutur. Bununla bərabər uşaqların səmimi, dürüst, yaxşılıqsevən, dostluğu qiymətləndirən bir şəxsiyyət kimi formalaşmasına çalışmışdır. Bu gözəl xüsusiyyətləri təkcə uşaqlar da deyil, böyüklərdə də görmək arzusunda olduğunu qələmə almışdır. Onun yaradıcılığı, başdan-ayağa humanizm,

qarşılıqlı, səmimi münasibət, vətəndaşlıq şüuru aşılayır. Uşaqlara böyüklərə qarşı ehtiram, hörmət göstərməyi tövsiyə edir. Bunları biz "Qaçaq", "Avuç üzərindəki atəşböcəyi", "Məşhur Purgin", "Kiçik zənglər" və s. əsərlərində müşahidə edirik. "Kiçik zənglər" hekayəsində dəmirçi qızı Katyanın fəallığını, sevgi və istəklərini artırmaq üçün kəndin gözəlliklərini qabardaraq məqsədini aydın, poetik bir dillə qələmə almışdır. Katya obrazından istifadə edən Lev Kuzmin, bu kəndin timsalında bütün kəndlərin gözəlliklərini, əməksevər insanların fəallığını, bolluq, ruzi və bərəkət yaradan traktoristlərin, dəmirçilərin musiqili şən həyatlarını, dostluqlarını təsvir etmişdir. Katya, uşaqları şən musiqi altında çöl çiçəklərini, ətraf aləmi heyranlıqla seyr etməyə dəvət edir. Permli yazıçı Lev Kuzmin yaradıcılığında, bütün ölkələrin uşaqlarını sevir, əzizləyir, onlarla yaxın olur, onlarda təbiətə, insanlara sevgi yaratmağa çalışır. Çünki vətən sevgisi, insanlara doğma sevgi hər zaman lazımdır.

30-cu illərin sonunda yaradıcılığa başlayan Yuri Vyaçeslavoviç Sotnik də uşaqların sevimli yazıçılarından biri sayılır. Əsərlərindəki yumoristik əhvalatlar, hər zaman başqa bir istiqamətin təsviri, onları oxumağa həvəsləndirmişdir. Sonrakı illərdə toplu şəklində çap olunan əsərləri, Yuri Sotnikin xüsusi istedadının ortaya çıxmasına səbəb olmuşdur. "Arximed Vovki Qrusin", "Görünməyən quş" əsərlərində oğlan obrazlarının qəhrəmanlıqlarını canlandıran yazıçı, tez-tez yumoristik və qəhrəmanlıq prinsiplərini bir araya gətirirdi. Belə hadisələrə əsərlərində çox rast gəlmək olur. Onun "Gürzə" adlı hekayəsi də maraqlı sujet xətti üzərində qurulmuşdur. Əsas rol burada Boryadır. O, məktəb tətili zamanı zoologiya guşəsinə hədiyyə etmək üçün çöldən gürzə və qurbağalar tutur. Onları bankaya yığır. Vaqonla evə gedəndə ehtiyatsızlıq edir, istəmədən gürzəni buraxır. Vaqonda bunu eşidən kimi səs-küy qalxır. Ustad nasir, məsələni çox şişirtməmiş, bir az yumora tərəf istiqamətləndirmiş, hadisəni yumşaltmağa çalışmışdır.

Digər hekayəsində isə təsadüfən kitab etajerkasının üstündə olan büstün əsərin qəhrəmanı Vovkanın əlindən düşüb qırılması ilə

başlayan hadisə qələmə alınmışdır. Bu büstün kimə məxsus olmasını bilməyən Vovka, Andreydən soruşur. Arximedi tanımadığını söyləyir. Amma dərsdə müəllim vasitəsilə ətraflı öyrəndiyi Arximedə böyük hörməti və məhəbbəti yaranır, onun adını qayığına verir.

Böyük yazıçı, bununla uşaqları savadlanmağa, müəllimə, kitaba hər zaman ehtiyac olduğunu bir daha diqqətə çatdırmışdı. Maraqlı sujet xətti üzərində qurulan bu hekayələr, həm maraqlı oxucu cəlb etmiş, həm də müəyyən sahələrə aid elmi məlumat vermişdir.

Aleksandr Borisoviç Raşkin də (1914-1971) uşaqlar üçün maraqlı əsərlər yazmışdır. Belə əsərlərdən biri "Ata, necə də kiçikdir" hekayəsidir. Bu hekayə həm yumoristik, həm də tərbiyəvi baxımından uşaqlara müəyyən dərəcədə müsbət təsir göstərmiş, itlə bağlı məsələdə isə ata və oğulun dialoqu hekayəni yumoristik istiqamətə döndərmişdir. Məsuliyyəti başa salmaqla bərabər bu əhvalı yaratmaq daha münasib və tərbiyəedicidir.

Viktor Qolyovkinin "Asfalt üzərində rəsmlər" hekayəsində məktəbli bir oğlanın şikayətləri əsas götürülmüşdür. Hekayənin qəhrəmanı məktəb həyatının çətinliklərindən söz açır: "Saçlarımı uzatdım, saçımdan dartıb məni keşişə oxşatdılar. Saçlarımı kəsdirəndə isə məni "keçəl", "kələm" adlandırdılar." O, yoldaşlarından çox incikdir. Onların şən, oynaq münasibətinə cavab verə bilməmiş, kədər dolu incikliyini bu şəkildə ifadə etmişdir. V.Qolyovkin bu hekayəsində yumor hissi ilə bərabər, məktəb yoldaşının mənliyinə, şəxsiyyətinə toxunacaq hərəkətlərin yolverilməz olduğunu ifadə etmişdir. Uşaqlara çatdırmaq istəmişdir ki, siz bununla öz sinif yoldaşınızı küsdürüb təhsildən uzaqlaşdıra bılərsınız.

Viktor Yuzefoviç Draqunskin, uşaqların psixoloji cəhətdən hərəkətlərinə, şənlənməsinə və gülüşünə motivasiya qazandıran səbəbləri, hekayənin qəhrəmanı Deniskanın dili ilə ifadə etmişdir. O, deyir ki, mən gülməyi sevirəm, həyat məni nə qədər sıxsa da, özümü güclə güldürürəm. Bu kimi fikirlərin ifadə olunması üçün əsərin digər vacib sahəsini uşaqlara aydınlaşdırmaqla, onlarda həvəs, ruh yaratmağa

çalışmışdır. Burada müxtəlif, fərqli baxış nümunələrinin, fərqli anlayış növlərinin yararsız olduğunu qəhrəman obrazın dili ilə sübut etmişdir. Bu isə həyatın fəal qavranılmasına, onu tanıyaraq sevməyi, gülmək, güldürmək kimi kiçik hisslərin yaranma səbəblərinə atılın ilk addımlar kimi təqdim edilmişdir. Amma bu ağıl hələ ayaq üstə deyil, gəzməyi öyrədir, tarazlığı saxlamağın üsullarını, həyatın harmoniyasının hansı istiqamətə yuvarlandığını göstərir. Necə ki, hərəkət zamanı tərin yuvarlandığını görürük. Burada obraz səbəbdən və obyektivlikdən danışır. Uşaq ədəbiyyatı, gülməli şeyləri genişləndirməyə kömək edir, bu da uşaqlar üçün müasir təcrübənin yumoristik tonallığında yumorlu bir vəziyyət, xüsusi bir işıqlandırma verir və uşağın şəxsiyyət olmasına yardımçı olur.

Həqiqət ilə fantastikanın bir-birinə qarışmasını adi bir hal kimi N.Nosovun macəra dolu hekayələrində, Y.Tominanın "Şəhərləri gəzən sehrbaz", A.Kirnosovun "Müdriklər ölkəsi", V.Medvedyevin "Adam ol, Barankin", L.Qeraşkinin "Ölkədə müasir dərslər" adlı əsərlərində müşahidə edirik. Bu əsərlər öz sujet xəttini, mövzusunu A.Poqorelskinin, V.Odoyevskinin, M.Qorkinin yaradıcılığından götürmüş və istiqamət qazanmışdır.

RSFSR Yazıçılar birliyinin III qurultayında A.L.Barto çıxışında qeyd edirdi ki, "biz belə düşünürük ki, bizim uşaq ədəbiyyatımız şən və həyatsevərdir."

Bu baxımdan "Bizim zarafatcıl dostlarımız" kitabının müəllifi S.Sivokon yazır: "Uşaqlar üçün sovet ədəbiyyatı gülməli ədəbiyyat ola bilməz. Bu ədəbiyyatı, yeni bir dünyanı sevinclə quran insanlar yaratdı. Bu ədəbiyyatı oxuyan uşaqlara yumor da lazımdır, çünki bu normal və mənəvi cəhətdən mükəmməl böyümə üçün vacibdir, həm də bu kitabların müəllifi normal və qiymətli bir pedaqoq olmalıdır." (Sivokon S. Sizin şən dostlarınız. M-1986 , səh.4)

Bu cür fikirlər bu sahədə çalışanlarda həvəs yaratdı. Onları yaradıcılığa ruhlandırdı. Yumorun köməyi ilə uşaqlar və yeniyetmələr arasında yeni ideyanın, zəngin dünyagörüşün formalaşmasına, bununla

bağlı problemlərin həlli istiqamətində çətinliklərin aradan qaldırılmasına stimul verildi. Belə əsərlərin köməyi ilə dünyada obyektiv hadisələrin müəyyən tərəfləri mənimsədildi. Çünki bu proses özlüyündə vacibdir, üstəlik mənəvi zövq verir, emosional həssaslığı inkişaf etdirir.

Beləliklə, elmi və bədii ədəbiyyat hər zaman öz inkişaf xətti ilə uşaqların formalaşması yolunu nurlandırır, ədəbiyyatın inkişafında, məktəbəqədər uşaqların yetişməsində fəal rol oynayır. Bu növ ədəbi nümunələr uşağa praktikada tətbiq edə biləcəyi bilikləri verməklə yanaşı, həm də ağlına və hisslərinə emosional təsir vasitəsi kimi xidmət edir.

Müasir Rusiyanın elmi və bədii əsərləri, materialist dünyagörüşə əsaslanır, elm və texnologiyanın müasir səviyyəsini əks etdirir, dəqiq elmi biliklər verməyə çalışır. Bu zaman tək istedadlı yazarlar deyil, həm də elm adamları elmi və bədii əsərlərin yaradılmasına cəlb edilməlidirlər. Elmi və bədii sahəni sənətkarlıq prinsipləri əsasında ahəngdar şəkildə birləşdirərək uğur qazanan yazıçılardan Q.Skrebitski, S.Saxarnov, Y.Veber, Y.Dmitriev, E.Şim, E.Fyedorov, Y.Fialkovu misal göstərə bilərik. Elmi ədəbiyyat gənc oxucuya müstəqil düşünməyi, hadisələri ardıcıllıqla nəzərdən keçirməyi öyrədir, dialektik təfəkkürü inkişaf etdirir, ortaya çıxan problemli məsələlərə düzgün istiqamət verməyə, təbii meyllərin formalaşmasına, peşə seçilməsinə və digər məsələlərə də kömək etmiş olur.

**Kaynakça**

Boçkareva B.İ. Lyubimova S.T. Mixayılova İ.M. Sovetskaya detskaya literatura M - 1958

Çernyavski Y.A. Requşevski Q. V. Detskaya literatura M -1981

KPSS XXVII qurultayının materialları. Moskva- 1986. səh.90

Setin F. İ. İstoriya Russkoy detskoy literatura M -1990

Sivokon S. Sizin şən dostlarınız. M-1986 , səh.4

SSRİ yazıçılarının VII qurultayının məruzələrindən. M-1981

Zubareva E.E. Detskaya literatura M-1985

Zubareva E.E. Detskaya literatura M-1989.